MCB LEASING

QAPALI SƏHMDAR CƏMİYYƏTİ

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

VƏ

MALİYYƏ HESABATLARI

31 DEKABR 2010

## MÜNDƏRİCAT

***Maliyyə hesabatları***

Rəhbərliyin məsuliyyətinin bəyanı 2
Müstəqil auditorların rəyi 3
Maliyyə vəziyyəti haqqında hesabat 4
Mənfəət və zərər haqqında hesabat 5
Kapitalda dəyişikliklər haqqında hesabat 6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat 7

***Maliyyə Hesabatlarına dair Qeydlər***

1. Şirkət və onun əsas fəaliyyəti ... 8
2. Təqdimatın əsasları ... 8
3. Əsas mühasibat uçotu siyasətləri ... 9
4. Nağd pul və nağd pul ekvivalentlər ... 11
5. Avanslar, qabaqcadan ödənişlər, digər debitor borcları ... 11
6. Mənfəət vergisi ... 11
7. Maliyyə lizinqi üzrə xalis investisiya ... 13
8. Əsas vəsaitlər ... 13
9. Qeyri-maddi aktivlər ... 14
10. Cari öhdəliklər ... 14
11. Uzunmüddətli kreditlər ... 14
12. Nizamnamə Kapitalı ... 15
13. Faiz xərcləri ... 15
14. Xarici valyuta əməliyyatları üzrə xalis gəlir ... 15
15. Əməliyyat xərcləri ... 15
16. İnzibati Xərclər ... 16
17. Maliyyə və şərti öhdəliklər ... 16
18. Maliyyə Risk İdarəetməsi ... 16
19. Əlaqəli tərəflərlə əməliyyatlar ... 17

HH

Müstəqil auditorların rəyinin 2-ci və 3-cü səhifələrində təqdim olunmuş və müstəqil auditorların məsuliyyəti ilə əlaqəli şəkildə oxunması tələb olunan bu hesabat MCB LEASİNG Qapalı Səhmdar Cəmiyyətinin maliyyə hesabatları ilə bağlı rəhbərliyin məsuliyyətlərini müvafiq olaraq müstəqil auditorların məsuliyyətlərindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Şirkətin 31 dekabr 2010-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və kapitalda dəyişikliklər hesabatını düzgün əks etdirən, habelə Maliyyə Hesabatların Beynəlxalq Standartlarına ("MHBS") uyğun olan maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar olaraq rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- Müvafiq mühasibat uçotu prinsiplərinin seçilməsinə və onların ardıcıl suratdə tətbiqinə;
- Məntiqli və məqsədəmüvafiq qərarların verilməsinə və qiymətləndirmələrin aparılmasına;
- maliyyə hesabatlarında açıqlanmış və izah edilmiş hər hansı mühüm kənarlaşmaların MHBS-ın tələblərinin uyğunluğuna;
- Şirkətin proqnozlaşdırıla bilən dövr ərzində öz fəaliyyətini davam edəcəyini güman etmək mümkün olmayana qədər maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanmasına

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuliyyət daşıyır:

- Şirkət daxilində səmərəli və sağlam daxili nəzarət sisteminin qurulmasına, tətbiqinə və saxlanılmasına;
- Şirkətin maliyyə hesabatlarının MHBS tələblərinə uyğunluğunu təmin etmək məqsədilə Şirkətin maliyyə vəziyyəti barədə hər zaman kifayət qədər dəqiq məlumat verən mühasibat qeydlərinin müvafiq qaydada aparılmasına;
- Normativ mühasibat qeydlərinin Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq aparılmasına;
- Şirkətin aktivlərinin mühafizəsini təmin edə biləcək məqsədəmüvafiq tədbirlərin görülməsinə;
- Saxtakarlıq hallarının və digər pozuntuların müəyyən edilməsinə və qarşısının alınmasına.

31 dekabr 2010-cu il tarixinə bitən il üzrə maliyyə hesabatları 04 Fevral 2011-cu il tarixində buraxılmaq üçün Rəhbərlik tərəfindən təsdiq olunmuşdur

4 Fevral 2011-cu il tarixində buraxılmaq üçün təsdiq olunmuş və imzalanmışdır.

| | |
|---|---|
| İdarə Heyətinin sədri | Maliyyə Direktoru |
| Cənab Ramal Cəfərov | Cənab Sibt -e-Hassan Taqi |

MCB Leasing Qapalı Səhmdar Cəmiyyəti



HH

NEXIA INTERNATIONAL Euro Audit premium quality services

**Müstəqil Auditorların Rəyi**

MCB Leasing Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə

*Maliyyə hesabatları haqqında hesabat*

Biz MCB Leasing Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2010-cu il tarixinə hazırlanmış və maliyyə vəziyyəti haqqında hesabatdan, 31 dekabr 2010-cu il tarixinə bitən il üzrə mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu prinsiplərinin icmalından və digər izahlı qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

*Rəhbərliyin maliyyə hesabatları ilə bağlı məsuliyyəti*

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında hazırlanmasına və düzgün təqdimatına cavabdehdir. Rəhbərliyin məsuliyyət sahəsinə aşağıdakı vəzifələr daxildir: maliyyə hesabatlarının saxtalaşdırılmadan və ciddi təhriflərə yol vermədən hazırlanması və düzgün təqdimatı üçün daxili nəzarət sisteminin planlaşdırılması, tətbiqi və aparılması; müvafiq mühasibat uçotu normalarının seçilməsi və tətbiqi; və şəraitə müvafiq mühasibat uçotu ehtimallarının hazırlanması.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında maliyyə hesabatları haqqında rəy bildirməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun olaraq həyata keçirdik. Həmin standartlar tələb edir ki, biz etik tələbləri təmin etməklə yoxlamanın aparılmasını elə planlaşdıraq və həyata keçirək ki, maliyyə hesabatlarında əks olunmuş məlumatlarda əhəmiyyətli səhvlərin olmadığına kifayət qədər əmin olaq.

Audit zamanı maliyyə hesabatlarında əks olunan məbləğ və açıqlamaları təsdiq edən audit sübutlarının əldə edilməsi üçün proseduralar yerinə yetirilir. Bu proseduralar auditorun mühakiməsindən, o cümlədən maliyyə hesabatlarında səhv və saxtakarlıqla bağlı ciddi təhrif risklərinin qiymətləndirilməsindən asılı olaraq seçilir. Həmin riskləri qiymətləndirərkən, auditor şəraitə münasib olan audit proseduralarının planlaşdırılması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə bağlı olan daxili nəzarət sistemini nəzərdən keçirir, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi barədə rəy bildirmək məqsədini qarşısına qoymur. Audit yoxlamasına həmçinin rəhbərlik tərəfindən tətbiq edilmiş mühasibat uçotu siyasətinin və verilən mühasibat ehtimallarının müvafiqliyinin, eləcə də maliyyə hesabatlarının ümumi təqdimat şəklinin qiymətləndirilməsi daxildir. Fikrimizcə, apardığımız audit nəticəsində toplanan əsaslar auditor rəyi vermək üçün kifayət qədərdir və məqsədəmüvafiqdir

*Rəy*

Hesab edirik ki, bu maliyyə hesabatları MCB Leasing Qapalı Səhmdar Cəmiyyətinin 31 dekabr 2010-cu il tarixinə bitən il üzrə maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli hallarda düzgün və Maliyyə Hesabatların Beynəlxalq Standartlarına uyğun əks etdirir.

Nexia Euro Audit MMC

Azərbaycan Respublikası EuroAudit MMC • EuroAudit member of Nexia International • Azerbaijan Republic EuroAudit LLC

Bakı, Azərbaycan
4 Fevral 2011

## 31 dekabr 2010-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabat

*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2010 | 31 dekabr 2009 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Nağd pul və bankdakı qalıq vəsaitlər | 4 | 60,641 | 4,000 |
| Avanslar, qabaqcadan ödənişlər, digər debitor borcları | 5 | 51,354 | - |
| Təxirə salınmış vergi aktivləri, xalis | 6 | 88,567 | - |
| **Cəmi dövriyyə aktivləri** | | **200,562** | **4,000** |
| Maliyyə lizinqi üzrə xalis investisiya | 7 | 1,177,993 | - |
| Əsas vəsaitlər | 8 | 167,256 | - |
| Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş əməliyyat xərcləri | 9 | 11,427 | - |
| **Cəmi qeyri-dövriyyə aktivləri** | | 1,356,676 | - |
| **CƏMİ AKTİVLƏR** | | **1,557,237** | **4,000** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Cari öhdəliklər | 10 | 26,031 | - |
| Uzunmüddətli kreditlər | 11 | 1,043,254 | - |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **1,069,285** | **-** |
| **XALİS AKTİVLƏR** | | **487,952** | **4,000** |
| **O cümlədən:** | | | |
| Nizamnamə kapitalı | 12 | 842,105 | 4,000 |
| (Yığılmış zərər) / bölüşdürülməmiş mənfəət | | (354,153) | - |
| **CƏMİ KAPİTAL** | | **487,952** | **4,000** |
| **Şərti öhdəliklər və təəhhüdlər** | 17 | | |

4 fevral 2010-cu il tarixində buraxılmaq üçün İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır

İdarə Heyətinin sədri
Cənab Ramal Cəfərov

Maliyyə Direktoru
Cənab Sibt -e-Hassan Taqi



HH

**31 dekabr 2010-cu il tarixinə bitən il üzrə mənfəət və zərər haqqında hesabat**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|---|
| Maliyyə lizinqi üzrə faiz gəliri | | 12,165 | - |
| Faiz xərci | 13 | (2,834) | - |
| **XALİS FAİZ GƏLİRİ** | | **9,331** | - |
| **Digər gəlirlər** | | | |
| Haqq, komissiya və brokerlik gəliri | | 13,906 | - |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 14 | 4,403 | - |
| Digər gəlirlər | | 1,664 | - |
| **Əməliyyat gəlirləri** | | **29,304** | - |
| **Əməliyyat xərcləri** | 15 | (331,103) | - |
| **İnzibati xərclər** | 16 | (140,921) | - |
| **Mənfəət vergisindən əvvəl zərər** | | **(442,720)** | - |
| **Mənfəət vergisi** | 6 | **88,567** | - |
| **Xalis zərər** | | **(354,153)** | - |

4 fevral 2010-cu il tarixində buraxılmaq üçün İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır

İdarə Heyətinin sədri
Cənab Ramal Cəfərov

Maliyyə Direktoru
Cənab Sibt -e-Hassan Taqi

MCB Leasing Qapalı Səhmdar Cəmiyyəti



HH

**31 dekabr 2010-cu il tarixinə bitən il üzrə kapitalda dəyişikliklər haqqında hesabat**
*(Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət / (zərər) | Cəmi kapital |
|---|---|---|---|
| **31 Dekabr 2008** | - | - | - |
| Səhmdar kapitalının artırılması | 4,000 | - | 4,000 |
| Dövr ərzində xalis mənfəət / zərər | - | - | - |
| **31 Dekabr 2009** | **4,000** | - | **4,000** |
| Səhmdar kapitalının artırılması | 838,105 | - | **838,105** |
| Dövr ərzində xalis mənfəət / (zərər) | - | (354,153) | **(354,153)** |
| **31 Dekabr 2010** | **842,105** | **(354,153)** | **487,952** |

4 fevral 2010-cu il tarixində buraxılmaq üçün İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır

İdarə Heyətinin sədri
Cənab Ramal Cəfərov

Maliyyə Direktoru
Cənab Sibt -e-Hassan Taqi

MCB Leasing Qapalı Səhmdar Cəmiyyəti MCB LEASING

8-18-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir



HH

**31 dekabr 2010-cu il tarixinə bitən il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
*(Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət / (zərər) | | (442,720) | - |
| Düzəlişlər: | | | |
| Köhnəlmə xərci | 16 | 20,324 | - |
| Amortizasiya xərci | 16 | 2,857 | - |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən yaranan pul vəsaitləri | | **(419,539)** | - |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər | | | |
| Əməliyyat aktivlərində (artma) / azalma: | | | |
| Avanslar, qabaqcadan ödənişlər, digər debitor borclar | | (51,354) | - |
| Əməliyyat öhdəliklərində artma / (azalma): | | | |
| Cari öhdəliklərdə artma | | 26,031 | - |
| Maliyyə lizinqdə xalis artma | | (1,177,993) | - |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin (məxarici) /mədaxili | | **(1,622,856)** | - |
| Ödənilmiş mənfəət vergisi | | - | - |
| Mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətlərindən yaranan pul vəsaitlərinin (məxarici) /mədaxili | | **(1,622,856)** | - |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN YARANAN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əsas vəsaitlərin alınması | | (187,579) | - |
| Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş istismar xərcləri | | (14,283) | |
| Əməliyyat fəaliyyətindən yaranan xalis nağd pul vəsaitlərinin məxarici | | **(201,863)** | - |
| **MALİYYƏ FƏALİYYƏTİNDƏN YARANAN NAĞD PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| İl ərzində nizamnamə kapitalının artması | | 838,105 | 4,000 |
| İl ərzində alınan uzunmüddətli borclar | | 1,043,254 | |
| Maliyyə fəaliyyətlərindən yaranan xalis pul vəsaitlərinin mədaxili | | **1,881,359** | **4,000** |
| Nağd pul vəsaitlərində və nağd pul vəsaitlərinin ekvivalentlərində xalis artım/azalma | | **56,641** | **4,000** |
| İlin əvvəlində nağd pul vəsaitləri və nağd pul vəsaitlərinin ekvivalentləri | | 4,000 | - |
| İlin sonunda nağd pul vəsaitləri və nağd pul vəsaitlərinin ekvivalentləri | | **60,641** | **4,000** |

4 fevral 2010-cu il tarixində buraxılmaq üçün İdarə Heyəti tərəfindən təsdiq olunmuş və imzalanmışdır

| | |
|---|---|
| İdarə Heyətinin sədri | Maliyyə Direktoru |
| Cənab Ramal Cəfərov | Cənab Sibt -e-Hassan Taqi |

8-18-ci səhifələrdə izah olunmuş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir



HH

## 1. Şirkət və onun əsas fəaliyyəti

"MCB Leasing" CJSC ("Şirkət") 16 oktyabr 2009-cu ildə tarixində Azərbaycan Respublikasında təsis olunmuşdur. Şirkət paylar ilə məhdudlaşdırılan qapalı səhmdar cəmiyyətdir və Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada yaradılmışdır

Şirkətin əsas fəaliyyət növü Azərbaycanda maliyyə lizinq xidmətlərini göstərməkdir. Şirkət sənaye təchizatı avadınlıqların müxtəlif növlərinin, tibbdə istifadə edilən avadanlığın, ictimai nəqliyyatlar və daşınmaz əmlakların lizinqini həyata keçirir. Bundan əlavə Şirkət, avtomobilləri, yük maşınlarını və vaqonları maliyyə lizinq vasitəsi ilə icarəyə verir. Şirkət lizinq aktivlərini Azərbaycan Respublikasında fəaliyyət göstərən tədarükçülərdən və xaricdən alır.

Şirkət, Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 16 Oktyabr 2009-cu il tarixində verilmiş 1701045991 N-li şəhadətnamə ilə qeydiyyatdan keçmişdir.

**Şirkətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi ölkə**

Şirkətin hüquqi ünvanı: Azərbaycan Respublikası, AZ1001, Bakı şəhəri, Səbail rayonu, Cəfərov Qardaşları küç., ev 11, mən. 26

31 dekabr 2010-cu il tarixinə MCB Bank Limited (Pakistan) buraxılan səhm kapitalının 95%-nə malikdir və təsisçi şirkətdir.

31 dekabr 2010-cu il və 2009-cı il tarixlərinə aşağıdakı səhmdarlar Şirkətin adi səhmlərinə sahib olmuşlar:

| | 31 Dekabr, 2010 | 31 Dekabr, 2009 |
|---|---|---|
| | % | % |
| MCB Bank Limited (Pakistan) | 95 | 95 |
| Cənab Namiq Səfərov Rahib (fiziki şəxs) | 5 | 5 |
| **Cəmi** | **100** | **100** |

## 2. Təqdimatın əsasları

**2.1 Maliyyə hesabatlarının tərtib olunma prinsipləri.** Maliyyə alətlərinin ədalətli dəyərlə ilkin tanınmasını, satıla biləcək maliyyə aktivlərin yenidən qiymətləndirilməsini və maliyyə alətlərin mənfəət və zərərdə əks olunmaqla ədalətli dəyərlə hesablanmasını təmin etməklə, bu maliyyə hesabatları Maliyyə Hesabatların Beynəlxalq Standartlarına (MHBS) əsasən, tarixi dəyər prinsipləri üzərində hazırlanmışdır. Bu hesabatların tərtib olunmasında istifadə olunan əsas uçot siyasətləri aşağıdakı kimidir. Bu uçot siyasətləri davamlı və sistematik şəkildə tətbiq olunmuşdur.

Şirkət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu qanunvericiliyi əsasında hazırlanmış və düzəlişlər nəticəsində MHBS-ə uyğunlaşdırılmışdır. Bu düzəlişlər əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələri, o cümlədən, bəzi aktivlərin və öhdəliklərin, gəlirlərin və xərclərin maliyyə hesabatı üzrə yenidən təsnifləşdirilməsini özündə birləşdirir.

**2.2 Əməliyyat valyutası.** Bu maliyyə hesabatlarında əməliyyat valyutası Azərbaycan Manatıdır.



ИИ

**2.3. Əhəmiyyətli təhminlər və mühakimələr.** MHBS-na əsasən hesabatların hazırlanması zamanı rəhbərlikdən müəyyən təxminlər etmək tələbolunur ki, bu da hesabatdakı rəqəmlərə təsir göstərir. Bu həmçinin Şirkətin rəhbərliyindən uçot siyasətlərinin tətbiqi zamanı öz mühakimələrinə əsaslanmasını tələb edir. Bu təxminlər və mühakimələr davamlı olaraq qiymətləndirilir və onların məqsədə uyğun olmasına nəzarət edilir. Aşağıdakı maddələrdə Şirkətin maliyyə hesabatları üçün əhəmiyyət daşıyan istiqamətlər üzrə müəyyən təxminlər və mühakimələr sadalanmışdır:

**a) Vergilər.** Mənfəət vergisi üzrə öhdəliklərin təxmin edilməsində rəhbərlik vergi qanunvericiliyini əsas götürmüşdür.

**b) Köhnəlmə, amortizasiya və əsas vəsaitlərin yenidən qiymətləndirilməsi.** Köhnəlmə və amortizasiya metodların müəyyən edilməsində rəhbərlik vəsaitlərdən əldə ediləcək iqtisadi faydanın şirkətə daxil olmasını əsas götürmüşdür.

## 3. Əsas mühasibat uçotu siyasətləri

**3.1 Maliyyə alətlərin ilkin tanınma və ölçülmə qaydaları.** Şirkət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya passivini balansda tanıyır. Maliyyə aktivlərinin və passivlərinin adi yolla alınması vəsatılması zamanı hesablaşma günü əməliyyat balansda tanınır. Sonradan əməliyyat və hesablaşmatarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldəedilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və passivləri ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövrlərdə bu alətlərin dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri aşağıda öz əksini tapır.

**3.2 Pul və pul ekvivalentləri.** Pul və pul ekvivalentləri elə aktivlərə deyilir ki, onları nəğd vəsaitlərə istənilən zaman tez bir şəkildəçevirmək mümkün olsun və bu zaman onların dəyərində çox cüzi bir fərq baş versin. Overnaytdepozitləri istisna olmaqla, bütün qısa müddətli banklararası vəsaitlər, digər banklardan alınanacavəsaitlərdə təsnif edilmişdir. İstifadə məhdudiyyəti olan vəsaitlər isə pul və pul ekvivalentlərinədaxil edilməmişdir. Pul və pul ekvivalentləri amortizasiya olunmuş maya dəyəri ilə ölçülür.

**3.3 Lizinqin başlanğıcı.** Lizinqin başlanğıc tarixi lizinq müqaviləsinin bağlandığı tarix və yaxud təəhhüdün öz üzərinə götürüldüyü tarix sayılır. Belə təəhhüd yazılı şəkildə olmalı, bütün tərəflər tərəfindən imzalanmalı və əsas şərtləri əks etdirməlidir.

**3.4 Lizinq müddətinin başlanması.** Lizinq müddətinin başlanması icarədarın lizinqə götürmüş aktivi istifadə etmək haqqına sahib olduğu tarix sayılır. Bu tarixdə lizinq üzrə aktiv tanınır.

**3.5 Əsas vəsaitlər.** Torpaq istisna olmaqla, daşınmaz əmlak və avadanlıq qiymətdən düşmə zərəri və yığılmış köhnəlmə çıxılmaqla ilkin və ya yenidən qiymətləndirilmiş dəyərlə balansda göstərilir. Köhnəlmə nəqliyyat vasitələri və kompyuterlərdən başqa bütün digər əsas vəsaitlər üçün azalan balans dəyəri metodu ilə hesablanır. Nəqliyyat vasitələri və kompyuterlərin köhnəlməsi düz xətt üsulu ilə hesablanır. Aşağıda göstərilən dərəcələr hər iki üsul üçün tətbiq olunur. Hər hesabat dövrünün sonunda əsas vəsaitlərin qalığ dəyərlərinə, xidmət müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır.

| | |
|---|---|
| Mebel və avadanlıq | 10% |
| Kompyüter və ofis avadanlığı | 20% |
| Nəqliyyat vasitələri | 20% |



HH

| | |
|---|---|
| Digər əsas vəsaitlər | 20% |

Hesabat tarixində əsas vəsaitlər və qeyri-maddi aktivlərin qalıq dəyəri, onlar üzrə əldə ediləbiləcək bazar dəyəri ilə müqayisə edilir və əgər bazar dəyəri qalıq dəyərindən azdırsa, bu aktivlərin qalıq dəyəri bazar dəyərindəki məbləğə uyğunlaşdırılır.

Yeni alınmış əsas vəsaitlər üçün köhnəlmə vəsaitin istifadəyə verildiyi aydan hesablanmağa başlayır. Vəsaitin balansdan silindiyi ayda isə köhnəlmə hesablanmır. Yenidən qiymətləndirmə nəticəsində yaranan artıq dəyər xüsusi kapital hesabında uçota alınır. Əmlakın və avadanlığın satışından yaranan qazanc ya itkilər mənfəət və ya zərər hesabına aid edilir. Əsas vəsaitə sonradan çəkilən xərclər vəsaitin daha çox iqtisadi fayda verəcəyinə səbəb olursa, belə xərclər aktivin balans dəyərinə əlavə olunur və ya ayrıca aktiv hesabında uçota alınır. Bütün digər təmir və saxlanma xərcləri mənfəət və ya zərər hesabına aid edilir.

**3.6 Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş əməliyyat xərcləri.** Şirkətin yaradılmasına çəkilmiş xərclər aktiv kimi tanınmışdır və aşağıda göstərilən dərəcələr ilə düz xətt üsulu ilə amortizasiya edilir. Hər hesabat dövrünün sonunda əsas vəsaitlərin xidmət müddətlərinə və köhnəlmənin hesablanma üsullarına yenidən baxılır.

| | |
|---|---|
| Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş əməliyyat xərcləri | 20% |

**3.7 Xarici valyuta əməliyyatları.** Xarici valyuta ilə ifadə olunan müəyyən edilmiş pul aktiv və öhdəlikləri balans tarixindəki alqı-satqı məzənnəsinə uyğun şəkildə Azərbaycan Manatına konvertasiya edilir. Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatın yerinə yetirildiyi günə qüvvədə olan valyuta məzənnəsi ilə hesablanır. Bu əməliyyatlardan yaranan gəlir və zərər xarici valyuta mübadiləsi üzrə xalis gəlir kimi qeyd edilir

Şirkət ilin sonuna maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı xarici valyuta məzənnələrindən istifadə etmişdir:

| 31 Dekabr 2010 | 31 Dekabr 2009 |
|---|---|
| USD 1 = AZN 0.7979 | USD 1 = AZN 0.8031 |
| AUR 1 = AZN 1.0560 | AUR 1 = AZN 1.1499 |
| GBP 1 = AZN 1.2377 | GBP 1 = AZN 1.2759 |
| RUB 1 = AZN 0.0263 | RUB 1 = AZN 0.0266 |

**3.8 Gəlirlərin tanınması.** Lizinq gəlirlərinin tanınmasında maliyyə üsulu istifadə olunur. Bu üsulla gələcəkdə qazanılacaq lizinq gəliri təxirə salınır və lizinq müddəti üzrə sabit faiz dərəcəsini tətbiq etməklə gəlirə aid edilir. Lizinq müqavilələrinə xitam verildikdə yaranan qazanclar/itkilər mənfəət və ya zərərə aid edilir.

**3.9 Avans ödənişləri.** Avans ödənişləri, nominal dəyərlə hesabatlarda göstərilir.

**3.10 Ehtiyatlar**. Ehtiyatlar, Şirkətin keçmiş hadisələrin nəticəsində mövcud olan hüquqi və ya konstruktiv öhdəliyə malik olması, bu öhdəliklə bağlı iqtisadi resursların Şirkət tərəfindən xərclənilməsi labüd olduğu və öhdəliyin dəyərinin etibarlı bir şəkildə dəyərləndirilməsi mümkün olduğu hallarda maliyyə hesabatlarında tanınır.

**3.11 Nizamnamə kapitalı.** Nizamnamə kapitalına edilən əlavələr maya dəyəri ilə tanınır. Adi səhmlər üzrə dividendlər, səhmdar kapitalında, elan edildiyi dövr üçün səhmdar kapitalını azaldan maddə kimi təqdim edilir. Hesabat tarixindən sonrakı dövrdə elan edilən dividendlər isə, BMS 10 “Hesabat tarixindən sonra baş



HH

vermiş hadisələr" standartına uyğun olaraq hesabat tarixindən sonrakı dövrdə baş vermiş hadisələr kimi təqdim edilir.

**3.12 Başlıca tanınma və ölçülmə qaydaları.** Şirkət müqaviləyə əsasən maliyyə aləti üzrə öhdəlik daşıyan tərəfə çevrildiyi zaman maliyyə aktivini və ya passivini balansda tanıyır. Maliyyə aktivlərinin və passivlərinin adi yolla alınması və satılması zamanı hesablaşma günü əməliyyat balansda tanınır. Sonradan əməliyyat və hesablaşma tarixləri arasında ədalətli dəyər üzrə ölçülən maliyyə alətlərinin adi yolla alınması zamanı əldə edilən alətlərin tanınması üçün istifadə edilən prinsiplərdən istifadə edilir.

Mənfəət və zərər hesabatı vasitəsilə ədalətli dəyərdə tanınan maliyə alətləri istisna olmaqla, bütün digər maliyyə aktivləri və passivləri ilkin olaraq ədalətli dəyərlə ölçülür və bu alətlərin alınması və ya buraxılması ilə birbaşa bağlı olan xərclər onun balans dəyərinə əlavə edilir. Sonrakı dövrlərdə bu alətlərin dəyərinin yenidən ölçülməsi ilə bağlı mühasibat prinsipləri aşağıda öz əksini tapır.

## 4. Nağd pul və bankdakı qalıq vəsaitlər.

Nağd pul və bankdakı qalıq vəsaitlərinə aşağıdakılar daxildir:

| | 31 Dekabr, 2010 | 31 Dekabr, 2009 |
|---|---|---|
| Nağd vəsaitlər | 459 | - |
| Banklarda yerləşdirilmiş cari hesablar yerli valyutada | 47,663 | - |
| Banklarda yerləşdirilmiş cari hesablar xarici valyutada | 12,518 | 4,000 |
| **Cəmi nağd pul və bankdakı qalıq vəsaitləri** | **60,641** | **4,000** |

31 Dekabr 2010 tarixinə şirkətin cari hesabları Azərbaycan Respublikasının kommersiya banklarında yerləşirdi. (Access Bank ASC, Dəmir Bank ASC,Pakistan Milli Bankı (Bakı) Azərbaycan Respublikasında və xaricdə (MCB Bəhreyn). 31 Dekabr 2010 tarixinə şirkətin cari hesabı DəmirBank ASC-də idi.

## 5. Avanslar, qabaqcadan ödənişlər, digər debitor borclar ı

Avanslar, qabaqcadan ödənişlər, digər debitor borclar aşağıdakılardan ibarətdir:

| | 31 Dekabr, 2010 | 31 Dekabr, 2009 |
|---|---|---|
| Lizinq tədarükçülərinə avans | 7,200 | - |
| Vergi avansları | 1,327 | - |
| İşçilərə avans | 7,140 | - |
| Qabaqcadan ödənilmiş xərclər | 7,860 | - |
| Alınacaq təzminat | 27,270 | - |
| Digər debitor borcları | 557 | - |
| **Cəmi avanslar, qabaqcadan ödənişlər, digər debitor borcları** | **51,354** | **-** |



HH

## 6. Mənfəət vergisi

Şirkət, vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar Beynəlxalq Maliyyə Hesabatları Standartlarından fərqlənə bilər. 31 Dekabr 2010-ci ildə bitən il üzrə, Azərbaycanda fəaliyyət göstərən şirkətlər üçün vergi dərəcəsi 20% olmuşdur. Vergi dərəcəsi müvafiq maliyyə ili üçün də eyni olaraq dəyişməz qalacaqdır.

Bəzi xərclərin vergi bazasının hesablanması zamanı nəzərə alınmaması və bəzi gəlirlərin vergiyə tabe tutulmaması nəticəsində Şirkətin daimi fərqləri yaranır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və passivlərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2010 ci və 2009-cı il tarixlərinə olan vergi xərcləri və mühasibat mənfəəti arasında olan əlaqə aşağıda göstərilib:

Müvəqqəti fərqlər, 31 dekabr 2010-da və 2009-da ibarətdir:

| | 31 Dekabr 2010 | 31 Dekabr 2009 |
|---|---|---|
| **Çıxılan müvəqqəti fərqlər:** | | |
| Keçmiş illərin zərəri | 442,835 | - |
| **Cəmi çıxılan müvəqqəti fərqlər** | 442,835 | - |
| Xalis təxirə salınmış vergiyə cəlb olunan müvəqqəti fərqlər | 442,835 | - |
| Yerli mənfəət vergisi dərəcəsi (20%) ilə xalis təxirə salınmış vergi öhdəliyi | 88,567 | - |
| **Xalis təxirə salınmış vergi aktivi** | **88,567** | - |

31 dekabr 2010 və 2009-ci il tarixlərinə bitən illər üzrə vergi xərcləri və maliyyə mənfəəti arasındakı əlaqə aşağıda izah olunur:

| | 31 Dekabr 2010 | 31 Dekabr 2009 |
|---|---|---|
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | (442,720) | - |
| Yerli vergi dərəcəsi ilə nəzəri vergi (20%) | 88,544 | - |
| Daimi fərqlərin vergiyə təsiri | 23 | - |
| **Mənfəət vergisi (gəlir) / xərc** | 88,567 | - |
| Cari mənfəət vergisi xərci | - | - |
| Təxirə salınmış mənfəət vergisi aktivləri üçün ehtiyat | 88,567 | - |
| **Mənfəət vergisi (gəlir) / xərc** | **88,567** | - |

| **Təxirə salınmış mənfəət vergisi aktivləri** | **31 Dekabr 2010 tarixində bitmiş il üzrə** | **31 Dekabr 2009 tarixində bitmiş il üzrə** |
|---|---|---|
| **Dövrün əvvəlinə** | - | - |
| Mənfəətə daxil edilən dövr üzrə mənfəət vergisi öhdəliyində dəyişiklik | 88,567 | - |
| **Dövrün sonuna** | **88,567** | - |



HH

## 7. Maliyyə lizinqi üzrə xalis investisiya

| | 31 Dekabr 2010 | | | | 31 Dekabr 2009 | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | 1 ildən çox olmayan | 1 ildən 5 ilə qədər olan | 5 ildən çox olan | Cəmi | 1 ildən çox olmayan | 1 ildən 5 ilə qədər olan | 5 ildən çox olan | Cəmi |
| Lizinq üzrə debitor borc | 566,619 | 977,901 | - | 1,544,521 | - | - | - | - |
| Minimal lizinq ödənişləri | 566,619 | 977,901 | - | 1 ,544,521 | - | - | - | - |
| Gələcək period üçün maliyyə xərcləri | 202,789 | 163,738 | - | 366,527 | - | - | - | - |
| **Minimal lizinq ödənişlərinin hazırkı dəyəri** | **363,830** | **814,163** | **-** | **1,177,993** | - | - | - | - |

## 8. Əsas vəsaitlər

Əmlak və avadanlıq aşağıdakılardan ibarətdir:

| | Kompyuter və Ofis avadanlığı | Nəqliyyat vasitələri | Mebel və avadanlıq | Digər əsas vəsaitlər | Cəmi |
|---|---|---|---|---|---|
| **İlkin dəyər 31 Dekabr 2009** | - | - | - | - | - |
| Əlavələr | 42,542 | 39,814 | 72,342 | 32,881 | **187,579** |
| **İlkin dəyər 31 Dekabr 2010** | 42,542 | 39,814 | 72,342 | 32,881 | **187,579** |
| **Yığılmış köhnəlmə 31 Dekabr 2009** | - | - | - | - | - |
| İl üzrə amortizasiya xərcləri | 5,313 | 6,311 | 4,999 | 3,700 | **20,324** |
| **Yığılmış köhnəlmə 31 Dekabr 2010** | 5,313 | 6,311 | 4,999 | 3,700 | **20,324** |
| **XQD, 31 dekabr 2009** | - | - | - | - | - |
| **XQD, 31 dekabr 2010** | **37,229** | **33,503** | **67,343** | **29,181** | **167,256** |

## 9. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər fəaliyyətə başlamazdan əvvəl çəkilmiş əməliyyat xərclərdən ibarətdir:

| | Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş əməliyyat xərcləri |
|---|---|
| **İlkin dəyər** | |
| **31 Dekabr 2009** | - |
| **Əlavələr** | 14,283 |
| **İlkin dəyər** | |
| **31 Dekabr 2010** | 14,283 |
| **Yığılmış köhnəlmə 31 Dekabr 2009** | |
| İl üzrə amortizasiya xərcləri | 2,857 |
| **Yığılmış köhnəlmə 31 Dekabr 2010** | 2,857 |
| **XQD, 31 dekabr 2009** | **-** |
| **XQD, 31 dekabr 2010** | **11,427** |

## 10. Cari öhdəliklər

| | 31 Dekabr 2010 | 31 Dekabr 2009 |
|---|---|---|
| Xərc ayırmaları | 11,229 | - |
| Lizinq təminatı depoziti | 7,200 | - |
| Tədarükçülərə olan kreditor borcları | 2,314 | - |
| Digər kreditor borcları | 5,288 | - |
| Cəmi cari öhdəliklər | **26,031** | **-** |



HH

## 11. Uzunmüddətli kreditlər

Bu 2 milyon ABŞ dolları ( 1,595,800 AZN) təşkil edən18 aylıq güzəştli xarici valyuta ssudasıdır. Əsas məbləğdən birinci ödəmə 2012-ci ilin aprel ayında olacaq. Ssudanın təminatı qirov qoyulmuş cari aktivlər və lizinqə götürülmüş avadanlıqlardır.

| | 31 Dekabr 2010 | | 31 Dekabr 2009 | |
|---|---|---|---|---|
| | **İllik faiz dərəcəsi** | **Məbləğ** | **İllik faiz dərəcəsi** | **Məbləğ** |
| MCB Bank Ltd. Bahrain | 3 aylıq LIBOR + 4% | 1,043,254 | - | - |
| Cəmi uzun müddətli borclar | | **1,043,254** | | - |

## 12. Nizamnamə kapitalı

| | 31 Dekabr 2010 | 31 Dekabr 2009 |
|---|---|---|
| 842,105 (31 dekabr 2009: 4,000) tam ödənilmiş AZN 1 qiymətində olan adi səhmlər | 842,105 | 4,000 |

## 13. Faiz xərci

Faiz xərci aşağıdakılardan ibarətdir:

| | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|
| **Təşkilatlardan alınan borclar üzrə faiz xərci** | 2,834 | - |
| **Cəmi faiz xərci** | 2,834 | - |

## 14. Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir

Xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir aşağıdakıdan ibarətdir:

| | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|
| Məzənnə fərqləri, xalis | 4,403 | - |
| **Cəmi xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlir** | **4,403** | - |



HH

## 15. Əməliyyat xərcləri

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

| | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|
| Əmək haqqı və mükafatlar | 265,051 | |
| Sosial sığorta xərcləri | 58,311 | |
| Tibbi sığorta | 7,740 | - |
| **Cəmi əməliyyat xərcləri** | **331,103** | **-** |

## 16. İnzibati xərclər

| | 31 Dekabr 2010 tarixində bitmiş il üzrə | 31 Dekabr 2009 tarixində bitmiş il üzrə |
|---|---|---|
| Ofis icarə haqqı | 44,960 | - |
| Köhnəlmə və amortizasiya | 20,324 | - |
| Təhlükəsizlik | 16,369 | - |
| Peşəkar xidmətlər üzrə haqqlar | 11,733 | - |
| Marketinq və reklam | 8,294 | - |
| Rabitə xərcləri | 6,617 | - |
| Audit xərci | 6,400 | - |
| Bank xərci | 5,717 | - |
| Kargüzarlıq və çap | 3,794 | - |
| Təmir və xidmət | 3,275 | - |
| Fəaliyyətə başlamazdan əvvəl çəkilmiş istismar xərclərinin amortizasiyası | 2,857 | - |
| Nəqliyyat vasitəsinin istehsalat itkiləri | 2,669 | - |
| Kommunal xərclər | 2,446 | - |
| Dəftərxana malları | 1,756 | - |
| Nəqliyyat vasitəsi sığortası | 1,432 | - |
| Vergilər, mənfəət vergisindən başqa | 620 | - |
| Digər xərclər | 1,660 | - |
| **Cəmi İnzibati xərclər** | **140,921** | **-** |

## 17. Şərti öhdəliklər və təəhhüdlər

| | 31 Dekabr, 2010 | 31 Dekabr, 2009 |
|---|---|---|
| **Şərti öhdəliklər və təəhhüdlər** | **-** | **-** |



HH

## 18. Maliyyə risklərin idarə edilməsi.

Risklərin idarə edilməsi Şirkətin məruz qaldığı maliyyə (kredit, bazaar, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi riskləri əhatə edir. Maliyyə risklərin idarə edilməsində əsas məqsəd risk limitlərin müəyyən olunması və sonradan o limitlərə riayət olunmasına nəzarət etməkdir. Əməliyyat və hüquqi risklərin idarə edilməsi daxili qaydalar və prosedurların qüvvədə olmasını təmin etməklə həmin risklərin azaldılmasına xidmət edir.

Kredit riski. Şirkət o zaman kredit riskinə məruz qalır ki, maliyyə alətinə sahib olan bir tərəf öhdəliyi yerinə yetirmir və nəticədə bu, digər tərəfə maliyyə itkisinə səbəb olur. Şirkətin lizinq fəaliyyəti və digər əməliyyatlar onun kredit riskinə məruz qaldığına səbəb olur.

Müşahidə şurası və İdarə heyəti tərəfindən təsdiq edilmiş şirkətin kredit siyasəti maliyyə lizinqin əsas prinsiplərini və qaydalarını müəyyən edir. Bu siyasət əsas göstəricilərin ölçülməsində, risklərin idarə edilməsində, gəlirliyin təmin edilməsində və işçilər üçün vəzifə təlimatı kimi xidmət edir. Lizinq portfelinin diversifikasiyasını və kredit risklərin azaldılması məqsədi ilə aşağıdakı limitlər mövcuddur:

- Biznes portfeli üzrə limitlər;
- İqtisadiyyatın sektorları üzrə limitlər; və
- Cəmləşmə limitləri

Limitlər rəhbərlik tərəfindən müəyyən edilir və ildə bir dəfə düzəldilir. Bazar mühitinin əhəmiyyətli dəyişildiyi halda limitlərə yenidən baxıla bilər. Limitlərdə dəyişiklik birinci növbədə Kredit Komitəsində müzakirə olunur, sonra isə İdarə Heyəti və Müşahidə Şurası tərəfindən təsdiq olunur.

Lizinq əməliyyatları departamenti bütün limitlərə riayət edilməsinə nəzarət edir.

Şirkətin Kredit siyasəti lizinq prosesinə aid olan bütün bölmələrin səlahiyyətlərini və məsuliyyətlərini tənzimləyir və təsdiq etmə limitlərini müəyyən edir.

Şirkətin kredit riskinə maksimal dərəcədə məruz qaldığı məbləğlər əsasən maliyyə aktivlərin balans dəyərlərində əks olunub. Aktivlərin öhdəliklər ilə əvəzləşdirmə effekti əhəmiyyətli deyil.

Kredit Komitəsi. Kredit Komitəsi şirkət içində İdarə Heyətinə hesabat verən kollektiv orqandır. Komitənin ümumi funksiyası lizinq əməliyyatlarını müəyyən edilmiş strateji istiqamətdə idarə etmək və onlara nəzarət etmək. Kredit Komitəsi əməliyyatların və lizinq müqavilələrin Kredit siyasətinə uyğun şəkildə həyata keçirilməsinə nəzarət edir.

**Valyuta riski**
Valyuta riski xarici valyuta məzənnəsinin dəyişməsi nəticəsində maliyyə aktivinin dəyərinin dəyişməsi riskidir. Xarici valyuta məzənnəsindəki dəyişikliklər Şirkətin maliyyə durumuna və nağd pul vəsaitlərinin hərəkətinə təsir edir.

**Likvidlik riski**
Likvidlik riski şirkətin öhdəliklərini ödəmək üçün lazımi vəsaitə malik olmamasını əks etdirir. Şirkət likvidliyini təmin etmək üçün nağd vəsaitlərin effektiv idarə edilməsini və planlaşdırma siyasətini tətbiq edir.

**Maliyyə aktivlərin və öhdəliklərin ədalətli dəyəri**
Maliyyə aktivlərin və öhdəliklərin balans dəyərləri onların ədalətli dəyərlərinə yaxındır. Ədalətli dəyər hər hesabat tarixində qərəzsiz sübut əsasında müəyyən edilir.



HH

## 19. Əlaqəli tərəflərlə əməliyyatlar

31 dekabr 2010 və 2009-ci il tarixlərinə əlaqəli tərəflərlə aşağıdakı qalıqlar mövcud olmuşdur:

| | **31 Dekabr 2010** | **31 Dekabr 2009** |
|---|---|---|
| | Təsisçi Şirkət | Təsisçi Şirkət |
| Nağd pul və bankdakı qalıq vəsaitlər | 1,013 | - |
| Uzun müddətli kreditlər | 1,043,254 | - |
| Kreditor borcları | 2,834 | - |

31 dekabr 2010 ci il ərzində əlaqəli tərəflər ilə aşağıdakı əməliyyatlar olmuşdur:

| | **31 Dekabr 2010 tarixində bitmiş il üzrə** | **31 Dekabr 2009 tarixində bitmiş il üzrə** |
|---|---|---|
| | Təsisçi Şirkət | Təsisçi Şirkət |
| Faiz xərci | **2,834** | - |

Əsli ilə düzdür.

İdarə heyətinin Sədri

Cəfərov R.C.

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti

Sayılıb və vərəqlənib

19 (on doqquz) vərəq.

Əsli ilə düzdür.

[illegible]iyyə Departamentinin Direktoru

SIBT-E-HASSAN TABI

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti

MCB Lizinq Qapalı Səhmdar Cəmiyyəti